ELM VƏ ALİ TƏHSİL ÜZRƏ
DÖVLƏT AGENTLİYİ

**2024-2025-ci tədris ili üçün Tio Biznes Məktəbində (Niderland Krallığı) təhsil üçün "İstedad" təqaüd proqramı**




Tio Biznes Məktəbi "İstedad" təqaüd proqramı çərçivəsində 2024-2025-ci tədris ili üzrə beynəlxalq tələbələrə Niderlandda təhsil almaq imkanı təklif edir.

**Təqaüd haqqında ümumi məlumat:**

"İstedad" təqaüd proqramı müstəsna akademik və ictimai fəaliyyət uğurları olan beynəlxalq tələbələri dəstəkləmək üçün nəzərdə tutulmuşdur. Onun məqsədi istedadlı şəxslərə Tio Biznes Məktəbində təhsil və peşə məqsədlərinə çatmaqda kömək etməkdir.

Bu təqaüdün məbləği hər bir tələbə üzrə "Super İstedad" təqaüdü üçün € 11,125 və "İstedad" təqaüdü üçün isə € 5562 təşkil edir. Təqaüd bir tədris ili üçün verilir. Bu təqaüd üçün hər il müraciət etmək mümkündür.

**Tələb olunan sənədlər:**

- İngilis dilində motivasiya məktubu və tərcümeyi-hal;
- İngilis dilində tövsiyə məktubu;
- İngilis dilinə tərcümə edilmiş təhsil sənədləri (attestat, diplom);
- İngilis dilinə tərcümə edilmiş son tarixə olan qiymət cədvəli;
- İngilis dili biliklərinizi sübut edən sənəd (IELTS, TOEFL, Cambridge imtahan nəticələri).

Qeyd: Sənədlər ***admissions@tio.nl*** elektron poçtuna göndərilməlidir.

**Müraciət prosesi:**

- Ərizəçilər əvvəlcə Tio Biznes Məktəbinə qəbul üçün müraciət etməlidirlər;
- Universitetə qəbul edildikdən sonra, tələb olunan sənədləri qəbul sənədi ilə birlikdə qeyd olunan son tarixə qədər icd@eatda.edu.az elektron poçtu vasitəsilə Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinə təqdim etməlidirlər.

***Yanvar (2025) smesteri üçün son müraciət tarixi:*** *10 oktyabr 2024-cü il*